S.16. № 240 (5562) ■ Qiyməti: 60 qəpik
BAKI XƏBƏR
16-22 YANVAR 2026-cı il
www.baki-xeber.com

**Azərbaycan Türkləri/Islam Ümmətinin milli-mədəni, ictimai-siyasi, dini-sakral, mənəvi-ruhani dünyagörüşü və həyat tərzinin formalaşmasında At kultunun İlahi istəyindən yaranan inanc və mistik-fəlsəfi təkamül təliminin yeri/yaranma çağları Üst Daş dövrünün sonundan (e.ə.XII-X minilliklər) sonuncu yüzilliklərədək (XX-XXI əsrlər) bir sıra Təbəddülat mərhələlərini özündə birləşdirir:**

# Azərbaycan xalqının etnomilli/mədəni və tarixi-coğrafi irsində-At kultu...

## (II yazı)

- Yeni minilliyə qədər olan mərhələ (Xristianlığaqədərki İcma, Qəbilə-Tayfa İttifaqı dövrü (İlyas peyğəmbər zamanından (e.ə.XIV-XIII əsrlər) Türk xalqlarına məxsus və hər il fevral ayının 12-14-cü günləri keçirilən mistik-inam düşüncəsində Xıdır Nəbi bayramı, Onun müqəddəs Atının payladığı xeyir-bərəkət, ruzi....timsalında tapınma);

- Alban mədəniyyəti dövründə (e.ə.V-IV əsrlərdən Erkən Orta əsrlərə-VII-VIII yüzilliklərə qədər) dini-sakral düzənlərinn bir simvolu kimi həm də At təsvirli miniatür heykəl nümunəsi-daş qəbirüstü abidələrdən istifadə olunmuşdur;

- Türk-İslam mədəniyyətinin formalaşması mərhələsi (VII-XXI əsrləri əhatə edir), bu mərhələnin ilkin dövründə ÜmumTürk-İslam mədəniyyətinin epik, ədəbi-bədii, tarixi-coğrafi, milli-etnoqrafik, ensklopedik salnamə-"Kitabi-Dədə Qorqud" dastanı yaranmışdır, bu həm də bəşəri dəyərlərə malikdir;

- İlk növbədə köçəri mədəniyyətinin dayanıqlı həyat tərzinə çevrilməsində, qeyri-maddi mədəniyyət dəyərləri ilə yanaşı At kultu da (el mərasimlərinin (cıdıra çıxmaq, Çövkən oyunu, Atla atlandırma...), milli məşğulluq (çaparçılıq), xalq deyimləri, milli ifa, sakral-ruhani tapınma...) milli-fəlsəfi zənginləşmə timsalında Bütöv Azərbaycan sərhədlərini də adlamışdır;

Bu sırada bəşəri görəvi özündə birləşdirən At kultunun milli-mədəni dəyərləri və Türk-İslam dünyasına mənsubluğu dinsiz hay kilsəsinin və ibtidai-insan hay sürüsünün mənimsəməyə çalışdığı irs olaraq Azərbaycan dövləti hüdudlarında da (ilk növbədə, Abşeron-Şirvan, Qərbi Azərbaycan, Naxçıvan və Qarabağda) uzun müddət düşmən hücumlarına məruz qalmış və qalmaqdadır. Şərqi Anadolu yaylasında, Cənubi Qafqazın uca dağ qurşaqları və geniş çay vadilərində köçəri elat qövmünün, oturaq tale yaşayan, bütöv dəyərləri paylaşan Türk-Müsəlman etnobirliklərinin kökənli milli, qeyri-maddi irsi sayılan At kultunu həyasızcasına öz adlarına çıxmağa çalışan hayların iddiaları aşağıdakı kimidir:

- Guya dünyada ilk dəfə Atları haylar əhliləşdirib, ən qədim At cinsləri (dağ Atları) "erməni" dağlıq yaylasında yetişdirilib, qədim dünyanın məşhur sərkərdələri (Makedoniyalı İskəndərin (e.ə.356-323-cü illər), I Yustinianın (527-565-ci illər) və Bizans ordularında) bu Atlardan ibarət "erməni" süvari dəstələrindən istifadə ediblər, Dunay, Reyn çayı sahillərində, İtaliya və Afrikada hay süvariləri "qəhrəmanlıq" ediblər, "məğlubedilməz süvarilər" adı qazanıblar, çünki, təkcə I Tiqranın olmayan dövründə guya 60 min "erməni" süvariləri olub, hətta Yaxın Şərq atlarının məşhur cinsləri hay atlarından törəyib....bu uydurma "tarixi" səhifələri ixtisasca geoloq olan S.M.Eyvazyan (1933-2009) "Rusiya tarixi, erməni izləri" əsərində (1997, 2000, Moskva ş.), yazıçı-tarixçi M.A.Şatiryan (1916-1985) "Gümüşü əsr" romanında (I-II kitablar, 1987, 1991, Moskva ş.), 1890-sı ildən nəşr edilən, Daşnakstyun terrorçuluğunun mərkəzi qəzeti "Bayraq" ("Droşak") səhifələrində... təbliğ ediblər;

-Yaxın Şərq və "Böyük İpək Yolu" üzərində yerləşən ölkələrə guya hayların yetişdirdiyi məşhur At cinsləri ixrac edilib, Asiya qitəsində ən güclü süvari ordu məhz haylara məxsus olubmuş;

Bütün bu mifik təsəvvür və xəstə təxəyyülün coğrafi məkanı kimi Qərbi Azərbaycan, Naxçıvan, Qarabağ, Gəncə, Şirvan, Qobustan... əraziləri göstərilib-İlandağ hövzəsi, Şərur vadisi, Araz çayı sahilləri, Ağrıdağ və ona bitişik ərazilər (Ərdahan, Torpaqqala), Pəmbək və Alagöz dağlıq qurşaqları, Zəngibasar nahiyəsi....Saysız-hesabsız uydurmaların əsassızlığı isə Bütöv Azərbaycan hüdudlarında tarixən, minilliklər boyunca təşəkkül tapmış və At kultu ilə bağlı olan, eləcə də bu günümüzə qədər yetişən şifahi-yazılı mənbələrlə, tarixi-sənədli bilgilərlə sübut olunmuşdur...

...2025-ci, Şərq təqviminə görə İlan ilinin son günlərində (28 dekabr) Bakı şəhərinin müasir, modern üslublu "Ağ şəhər" məhəlləsinin "Zaman" meydanında mistik-fəlsəfi inanc simvolu kimi 7 at heykəli (ard-arda sıralanmış) açılışı olmuşdur. Meydanın adı məşhur Qarabağ atına (1956-cı ildə kraliça II Yelizavetaya (1926-2022) hədiyyə edilmiş Qırmızı Kəhər cinsi) nişanə olsa da, 7 sayı Türk dünyasının At kultuna bağlı müstəqil dövlətləri (Türkiyə, Macarıstan, Qazaxstan, Özbəkistan, Türkmənistan, Qırğızstan, Azərbaycan...), eləcə də, Bütöv Azərbaycanın 7 qədim bölgəsi (Dərbənd, Borçalı, Cənubi Azərbaycan, Qərbi Azərbaycan, Naxçıvan, Qarabağ, Şərqi Azərbaycan...) timsalında qəbul edilməsi 2026-cı il Qırmızı/Alovlu At ilinə milli-mənəvi bir çağırışdır…

Haşiyə. SSRİ rəhbərliyinin dinsiz hay kilsəsi ilə münasibətlərinin isti, sıx, hərtərəfli olduğu bir dövrdə (XX əsrin ortalarında) Qarabağ atını İngilis kraliçasına təqdim edən şəxsin məhz Azərbaycan Türkünün olması mistik-fəlsəfi Haqqın hökmü kimi qəbul etmək olar, Əli Tağı oğlu Tağıyev (1930-2005) əslən Borçalı mahalından idi, həmin ildə hərbi xidmətdə olsa da, Moskva şəhərindən gəlmiş hökumət komissiyası tərəfindən o, seçilmişdir, xüsusi dəvətlə Qarabağ atını Kraliçaya təqdim etmişdir. 1967-ci ildə Bakı şəhərində keçirilmiş Milli Novruz Bayramı tonqalının da o yandırmışdır...




"Türk dünyası coğrafiyası"nda milli-mənəvi və qeyri-maddi irs nümunəsi kimi At kultu eləcə də, Türk-müsəlman hüdudlarında (o cümlədən, Cənubi Qafqazda) ən qədim insan yaşayışı məskənlərinin sərhədləri ilə şərtlənmişdir. Təbii ki, Al kultu ilə bağlı toponimlərin Bütöv Azərbaycan coğrafi məkanlarında yayılması bir daha adı çəkilən mədəniyyətin tarixi-coğrafi dəyərlərini təsdiq edən bir amildir.Etimoloji mənaca Al kultunun fəlsəfi-sakral anlamını ifadə edən yer adları həm də, eramızdan əvvəlki minilliklərin milli-mənəvi irsinin, əski Türkdilli qədilə-tayfa İttifaqı siyasi-ictimai dəyərlərinin tarixi-coğrafi ünvanını/məkanını bir daha əyani ifadə edir. Bu isə dinsiz hay kilsəsinin, onun ibtidai insan/hay sürüsünün guya At kultunun onlara məxsusluğu ilə bağlı əsassız iddialarına tutarlı cavabdır.

Tərəkəmə elatının yaylaq-qışlaq dövrü, yaşayış məntəqələri arasında ticarət və əlaqələrin yaradılması, milli bayram və şölənlərin keçirilməsində özəl mərasimlərin keçirilməsi....və bu qeyri-maddi irs zənginliyində xüsusi At cinslərinə üstünlük verilməsi Türk dünyasında olduğu kimi Bütöv Azərbaycanda da Qüvvət, Birlik, Yenilməzlik, Sədaqət, İnam...rəmzi kimi At kultu qəbul edilmişdir. Bu mənada yaranan coğrafi adların etimoloji anlamı xüsusi elmi-nəzəri, tarixi-coğrafi dəyərlərə malikdir.

Belə ki, Qərbi Azərbaycanın bütün əski, kökənli bölgələrində milli At kultu ilə bağlı toponimlər geniş yayılmış və minilliklərə qədər uzanan morfogenetik təməl prinsirlərini ifadə edir. Çünki bu dəyərlər tarixən formalaşmış milli-mədəni irsi əhatə etditi kimi, həm də geniş coğrafi hüdudları özündə birləşdirir. At kultu ilə bağlı təbii məkan sərhədlərinin genişliyi Bütöv Azərbaycan timsalında aşağıdakı amillərə görə şərtlənir:

- İlk növbədə tərəkəmə elatına mənsub dəyər göstəricisi kimi sırf Türk-Müsəlman xalqlarına mənsubdur ki, Doğudan Batıya sərhədləri aşıb keçir, Azərbaycan Türkləri isə Xəzər dənizi sahillərindən Anadolu yaylasındək geniş ərazilərdə yayılmışdır;

- Eramızdan əvvəlki Yaxın Şərq Təbəddülat mərkəzlərinin, Böyük Ipək Yolunun, strateji əhəmiyyətli relyef-landşaft örtüyünün Bütöv Azərbaycan sərhədlərində formalaşması At kultunun kökənliyini təsbit edən təbii-coğrafi amillərdir;

- Xəzər-Abşeron, Kür-Araz, Xocalı-Gədəbəy, İlandağ-Qapıcıq, Göyçə-Ağrı....mədəniyyət ocaqlarında təşəkkül tapmış dini-sakral, ruhani-mistik, maddi-mədəni...irs zənginliyində (Xızır Atının müqəddəsliyi, bərəkət rəmzinin At yalına bənzədilməsi, əski əksər qəbir daşları sırasında At təsviri, Qarabağ-Gəncəbasar hövzələri boyunca uzanan Qəbir Təpələri/Kurqan nümunələri, Qərbi Zəngəzurda "Atlıqız" əfsanəsi, Aralıq nahiyəsində Sarıxan atları, İlandağ nahiyəsində, Qapıcıq-Biçənək qurşağı daxilində (Qazandağ əfsanəsi, Şahbuz nahiyəsinin Daylaq kəndi, Mehri dağ ətəyində Əlidərəsi kəndində IV xəlifə Həzrət Əli əleyhis-səlamın Atı-Düldülün ləpiri...) Al kultunun geniş yayılması qədim insan yaşayışı məskənlərinin və dünyadərkinin fəlsəfi məzmunu ifadə olunmuşdur.

Bütöv Azərbaycan hüdudlarında At kultu ilə bağlı yer adlarınını/toponimlərin etimoloji təhlili, yaranma tarixi, xronoloji yaranma səbəbləri...barədə növbəti yazılarda...

***Qismət Yunusoğlu,***
***Bakı Dövlət Universitetinin müəllimi***